# Diaspor quruculuğu sahəsində yeni mərhələ




## *Dünya Azərbaycanlılarının IV Qurultayı soydaşlarımız arasında mənəvi-ideoloji birliyi daha da möhkəmləndirəcək*

**İyunun 3-də və 4-də Bakıda Dünya Azərbaycanlılarının IV Qurultayı keçirildi. Bu ali məclisdə dünyanın 42 ölkəsindən seçilmiş 579 nümayəndə, habelə dünyanın 30 ölkəsindən 211 nəfər qonaq iştirak edirdi. Qurultayda Azərbaycan Respublikası 677 nümayəndə və 405 nəfər qonaqla təmsil olunurdu. Vurğulamaq lazımdır ki, bu qurultay özündən əvvəlki ali məclislərlə müqayisədə daha mütəşəkkil, daha möhtəşəm və səmərəli keçdi.**

**Dünya Azərbaycanlılarının IV Qurultayının açılış mərasimində Prezident İlham Əliyevin proqram xarakterli nitqi nümayəndələr tərəfindən coşqunluqla, razılıqla qarşılandı. Ölkə başçısı ilk öncə nümayəndələri ürəkdən salamladı, bildirdi ki, birinci qurultay ulu öndər, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə keçirilmişdir. O vaxtdan bu günə qədər Azərbaycanda böyük işlər görülmüşdür, Azərbaycan daha da güclənmişdir, bizim imkanlarımız artmışdır. Əlbəttə, biz həmişə xaricdə yaşayan azərbaycanlıların həyatı, taleyi, işləri ilə maraqlanırıq. Çalışırıq ki, onlara öz dəstəyimizi verək. İstəyirik ki, onlar olduqları ölkələrdə rahat yaşasınlar, yaxşı mövqe tutsunlar, onların yaxşı imkanları olsun və eyni zamanda, öz doğma Vətəninə də xidmət etsinlər.**

**Ölkə başçısının nitqində qeyd olundu ki, Azərbaycan diaspor təşkilatları həm kəmiyyət, həm keyfiyyət baxımından böyük yol keçmiş, güclənmiş, bu gün dünya miqyasında azərbaycanlılar və onların təmsil etdikləri təşkilatlar önəmli rol oynayırlar.**

**Əməkdaşımız Dünya Azərbaycanlılarının IV Qurultayında iştirak edən nümayəndələrlə görüşmüş, onların ali məclisdən hansı təəssüratla qayıtmaları ilə maraqlanmışdır. Biz qurultay iştirakçılarından bir neçə nəfərin ürək sözlərini oxuculara təqdim edirik.**



**Emin Hacıyev** *(Ümumrusiya Azərbaycanlı Gənclər Birliyinin icraçı direktoru):*

—Dünyanın müxtəlif yerlərində məskunlaşmış azərbaycanlıların mütəşəkkil diaspor kimi formalaşması, lobbi quruculuğu sahəsində Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Bu isə əslində respublikada aparılan dövlət siyasətinin ümummilli mənafelərin reallaşdırılması deməkdir. Azərbaycan Respublikası dünya azərbaycanlıları tərəfindən milli-tarixi təkamülün bəhrəsi, milli mənliyin rəmzi, tarixi Vətən anlayışının inikası kimi qəbul edilmişdir.

Qeyd etmək lazımdır ki, milli birliyin ideoloji əsası olan azərbaycançılıq ideyası ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyev tərəfindən formalaşdırılmışdır.

Rusiya Federasiyasındakı soydaşlarımız daha çox nümayəndə ilə Dünya Azərbaycanlılarının Bakıda keçirilən IV Qurultayında iştirak etdi. Rusiyadakı soydaşlarımız bir bayraq altında birləşərək, monolit qüvvəyə çevrilmişlər. Rusiyanın müxtəlif vilayət və şəhərlərində, xüsusilə paytaxt Moskvada azərbaycanlıların birliyi məsələsi—azərbaycançılıq ideologiyasının reallaşdırılması qəbul edilmişdir.

Qürur hissi ilə bildirirəm ki, Dünya Azərbaycanlılarının Bakıda keçirilən IV Qurultayı Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Qurultayda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin söylədiyi belə bir fikri xatırlamaq yerinə düşərdi:

**—"Diaspor təşkilatlarının fəaliyyəti daim diqqət mərkəzindədir. Bu gün mən diaspor təşkilatlarının gələcək fəaliyyəti ilə bağlı bəzi fikirlərimi bildirmək istəyirəm. İlk növbədə, əlbəttə, biz istəyirik ki, dünyada yaşayan azərbaycanlılar öz tarixi Vətənləri ilə əlaqələri heç vaxt kəsməsinlər. Daim əlaqədə olsunlar, Azərbaycan ilə bağlı olsunlar. Beləliklə, onlar özlərini daha da rahat hiss edəcəklər. Belə olan halda Azərbaycan dövləti onlara daha da böyük dəstək verə biləcək. Hazırda dünyada yaşayan azərbaycanlıların sayı milyonlarla ölçülür. Əlbəttə ki, onlar yaşadıqları ölkələrin vətəndaşlarıdırlar. Mən çox istəyirəm ki, onlar yaşadıqları ölkələrdə daha da böyük mövqelərə nail ola bilsinlər. Yaşadıqları ölkələrin ictimai, siyasi, iqtisadi həyatında daha da fəal rol oynasınlar".**

Ümumiyyətlə, biz doğma Bakıdan, Xəzərin nəğməli sahillərindən xoş təəssüratla ayrılırıq, sevinirik ki, Azərbaycan Cənubi Qafqazda öz liderliyini ləyaqətlə qoruyub saxlayır.



**Vüqar Novruzov** *(Moldova Azərbaycanlıları Konqresinin sədri, "Əmək şöhrəti" ordenli):*

—Xaricdə yaşayan soydaşlarla əməkdaşlığın formalaşdırılmasında yaxından iştirak etmək və diaspor təşkilatlarının fəaliyyətini dəstəkləmək xalqların və dövlətlərin tarixində mühüm yönlərdən biri olub. XX əsrin sonlarında öz dövlət müstəqilliyini bərpa etmiş Azərbaycanda da bu tarixi ənənə böyük yaradıcılıq və məsuliyyətlə davam etdirilib.

Vurğulamaq lazımdır ki, Azərbaycan dövləti bütün dünyada yaşayan azərbaycanlıların siyasi istinadgahı kimi çıxış edir və hər zaman onların qarşılaşdığı çətinliklərin həllində yaxından iştirak etməyi özünün ali məqsədlərindən biri kimi dəyərləndirir.

Ümummilli liderimiz, ürəklərdə işıq heykəlinə çevrilən Heydər Əliyev demişdir: **"Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycançılığı, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır".**

İyunun 4-də Bakıda Dünya Azərbaycanlılarının IV Qurultayı öz işini uğurla başa çatdırdı. Vurğulamaq lazımdır ki, qurultayda Azərbaycan Prezidenti İlham Əliyevin proqram xarakterli nitqi müxtəlif ölkələrdən ali məclisdə iştirak edən soydaşlarımızın vahid ideya ətrafında birləşdirilməsində mühüm rol oynayacaq, soydaşlarımız arasında mənəvi-ideoloji birlik möhkəmlənəcəkdir.

Dünya Azərbaycanlılarının IV Qurultayından sonra Moldovada yaşayan həmvətənlərimiz ikiqat səylə çalışaraq Vətənlə əlaqələri möhkəmləndirəcək, müxtəlif tədbirlər keçirəcək, Azərbaycan həqiqətlərinin dünya xalqlarına çatdırılmasına maksimum səy göstərəcəklər.

Biz əminik ki, çox tezliklə Prezident İlham Əliyevin titanik səyi nəticəsində işğal altında olan torpaqlarımız geriyə qaytarılacaqdır. Mən Laçın torpağının yetirməsi kimi Laçının düşməndən azad olunacağı günü səbirsizliklə gözləyirəm...



**Mobil Məmmədov** *(Özbəkistan Azərbaycanlıları Milli Mədəniyyət Mərkəzinin sədri, "Dostluq" ordenli, "Tərəqqi" medallı):*

—Milli dövlətçilik ideyası dövlət müstəqilliyimizin əbədiliyi və dönməzliyi Azərbaycan Respublikasının bütün azərbaycanlıların milli sərvəti bu gün harada yaşamasından asılı olmayaraq Azərbaycanda dünyaya gəlmiş bütün soydaşlarımızın Vətəni kimi dərk edilməsi azərbaycançılığın mühüm meyarlarındandır.

1993-cü ilin iyun ayında tarixi zərurət və xalqın tələbi ilə ümummilli lider Heydər Əliyev yenidən respublika rəhbərliyinə qayıtdıqdan sonra Azərbaycanın ictimai həyatının bütün sahələrində, o cümlədən dünya azərbaycanlıları ilə əməkdaşlıq istiqamətində keyfiyyət və mahiyyətcə yeni mərhələ başlanmış, ulu öndərin təşəbbüsü ilə 2001-ci ilin noyabrında Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilmiş, milli diasporumuz təşəkkül tapmışdır.

Bakıda bu günlərdə öz işini uğurla başa çatdıran Dünya Azərbaycanlılarının IV Qurultayı Özbəkistandan ali məclisdə iştirak edən nümayəndələrdə yüksək əhval-ruhiyyə yaratmışdır. Diaspor rəhbəri kimi sevincimin hüdudu yoxdur, qurultayda Prezident İlham Əliyevin sərəncamı ilə "Tərəqqi" medalına layiq görüldüm.

Şübhəsiz, qurultaydan sonra biz Özbəkistanda diaspor quruculuğunun geniş vüsət almasına yaxından diqqət yetirəcək, fəaliyyətimizdə Prezident İlham Əliyevin tövsiyə və göstərişlərinə üstünlük verəcək, yaşadığımız ölkədə azsaylı xalqlar arasında əməli işimizlə fərqlənəcəyik.



**Patzer - İsmayılova Samirə** *(Almaniyada Avropa Azərbaycanlıları Konqresinin prezidenti):*

—Azərbaycan mənim üreyimdir—deyən ulu öndərimiz şəxsiyyət Heydər Əliyev şəxsiyyətinin möhtəşəmliyi onda təzahür etmişdir ki, diaspor ilə işi yalnız ölkəmizin siyasi-iqtisadi maraqlarının tərkib hissəsi olaraq deyil, ilk növbədə milli-mənəvi məsələ kimi irəli sürürdü.

Milli birliyin ilk növbədə mənəviyyat, məfkurə birliyi olduğunu təsbit edən ümummilli lider Heydər Əliyevin 1996-cı ilin iyul ayında Almaniyaya səfəri zamanı Bonn şəhərində soydaşlarımızla görüşdə söylədiyi dərin məzmunlu nitqi bu ölkədəki həmvətənlərimizi diaspor quruculuğunda daha fəal olmağa ruhlandırmışdır.

Almaniyada bu gün milli diasporumuz mütəşəkkil qüvvəyə çevrilmişdir. Yaşadığımız ölkədə milli bayramlarımız, həmçinin 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Mart qırğını ilə bağlı mütəmadi tədbirlər həyata keçirilir.

Avropa azərbaycanlılarını təmsil edən bir diaspor rəhbəri kimi bu günlərdə öz işini uğurla başa çatdıran Dünya Azərbaycanlılarının IV Qurultayı bir azərbaycanlı kimi məndə böyük coşqunluq, sabaha ümid yaratdı, Vətənə sıx tellərlə bağladı. Özüm isə Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan diasporunun inkişafındakı xidmətlərimə görə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görüldüm.

Bundan sonra Avropa azərbaycanlıları arasında səmərəli iş aparacaq, Azərbaycan-Almaniya dostluq əlaqələrinin möhkəmləndirilməsində var qüvvəmi əsirgəməyəcəm.



**Qüdrət Hacıyev** *(Ukrayna Azərbaycanlıları Konqresi Dnepropetrovsk regional təşkilatının sədri):*

—Hazırda dost Ukraynada 500 minə yaxın soydaşımız yaşayır. Yaşadığımız ölkədə milli öndərimiz Heydər Əliyevlə Kiyev şəhərindəki görüşü biz heç vaxt unutmayacağıq. Bir sözlə, Heydər Əliyev Ukrayna Azərbaycan dostluğunun memarıdır.

Ukraynanın ayrı-ayrı vilayət və şəhərlərində olduğu kimi, Dnepropetrovsk şəhərində də həmvətənlilərimiz vahid ideya ətrafında birləşərək mütəşəkkil qüvvəyə çevrilmişlər. Yaşadığımız ölkədə milli diasporumuz mütəmadi silsilə tədbirlər keçirir, dilimizi, mədəniyyətimizi şərəflə qoruyub saxlayırlar.

Uzun illərdi ki, diaspor təşkilatına rəhbərlik edirəm. Dünya Azərbaycanlılarının I, II və III qurultaylarının iştirakçısı olmuşam. Özümü xoşbəxt sanıram ki, bu guşələrdə Dünya Azərbaycanlılarının IV Qurultayında da iştirak etmək mənə nəsib oldu.

Qurultayda Prezident İlham Əliyevin proqram xarakterli nitqi milli diasporumuzun təşəkkül tapmasında qarşımızda geniş üfüqlər açacaq, həmişə Vətənlə sıx əlaqələr quracağıq.



**İradə Uluxanlı** *(Hollandiya Bölünməz və Demokratik Azərbaycan Uğrunda Cəmiyyətinin sədri:)*

—Qürbət bir ölkədə, Bakıdan çox-çox uzaqlarda —Hollandiyada yaşasaq da, qəlbimiz həmişə Vətən, Azərbaycan eşqi ilə döyünür. Bu gün Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində yaşadığımız ölkədə diaspor sahəsində bir sıra uğurlara imza atılmışdır.

Hollandiyada mütəmadi olaraq milli bayramlarımız təntənə ilə qeyd olunur, 20 Yanvar faciəsi, Xocalı soyqırımı ilə bağlı yaddaqalan tədbirlər keçirilir, mahnı və rəqslərimiz səslənir, mədəniyyətimiz təbliğ olunur, Azərbaycan həqiqətləri dolğunluğu ilə dünya xalqlarına çatdırılır.

Bir azərbaycanlı, diaspor rəhbəri kimi iyunun 3-4-də Bakıda keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayı məndə xoş ovqat yaratdı. Prezident İlham Əliyevin qurultaydakı dərin, məzmunlu nitqindən belə qənaətə gəldim ki, dünya azərbaycanlıları vahid ideya ətrafında birləşəcək, erməni təbliğatının qarşısına sipər çəkiləcək, tezliklə Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, ermənilər məkrli niyyətlərinə çata bilməyəcəklər.

**Əli Məmmədov** *(Gürcüstan Parlamentinin deputatı, Yerli İdarəetmə və Regional Dirçəliş partiyası Başkanının müavini):*

—Azərbaycan Respublikasının yaxın dostu və qonşusu Gürcüstanla sıx əlaqələr mövcuddur. Tarixin ən çətin anlarında gürcü və Azərbaycan xalqları bir-birlərinə əl tutmuş, müxtəlif tədbirlərdə eyni mövqedən çıxış etmişlər.



Qürurla qeyd etmək istərdim ki, son illər Gürcüstandakı Azərbaycan diasporu mütəşəkkil qüvvəyə çevrilmişdir. Bu gün onların hər bir sahədə fəallığı, mübarizliyi müşahidə olunur. Bir çox məsələlərin həllində Azərbaycan Respublikası Gürcüstandakı soydaşlarımıza dayaq durur.

Ümumiyyətlə, Gürcüstanda yaşayan azərbaycanlıların problemlərinin həlli istiqamətində bir sıra tədbirlər həyata keçirilir. Soydaşlarımızın problem və qayğılarını müəyyənləşdirmək məqsədi ilə Azərbaycandan müvafiq işçi qrupu yaradılaraq bu ölkəyə ezam edilir.

Səfərlər zamanı Gürcüstanda azərbaycanlılar yaşayan bölgələrdə yerli hakimiyyət orqanlarının nümayəndələri, soydaşlarımızın hüquqlarının müdafiəsi ilə məşğul olan ictimai təşkilatların təmsilçiləri, habelə sadə vətəndaşlarla görüşlər keçirilir.

Bakıda keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayında gürcüstanlı nümayəndələr ruh yüksəkliyi ilə iştirak etdilər. Azərbaycan Prezidenti cənab İlham Əliyevin ali məclisdəki dərin, məzmunlu çıxışı göstərdi ki, Azərbaycan diasporu güclənəcək, XXI əsrdə monolit qüvvəyə çevriləcəkdir.

Bir deputat kimi Bakının gözəlliyindən ilham alır, idman ölkəsinə çevrildiyindən məmnun qaldığımı bildirirəm.



**Şəhla Kazımova** *(Varşava Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin əməkdaşı, Azərbaycan Mədəniyyət Mərkəzinin sədri):*

—Azərbaycan bu gün Avropanın inkişaf etmiş ölkələri ilə bir sırada durur. Bakının mənzərəsi, xüsusilə Xəzər sahilləri başdan-başa dəyişmiş və gözəllik libasına bürünmüşdür. Bunu müxtəlif ölkələrdən Bakıda idman yarışlarında iştirak edən bütün avropalılar deyir.

Polşada yaşayan azərbaycanlılar doğma Vətənin tərəqqisinə sevinir, diaspor quruculuğu sahəsində uğurlara imza atırlar. Yaşadığımız ölkədə milli diasporumuzun təşəbbüsü ilə yaddaqalan tədbirlər keçirilir, adət-ənənələrimiz ləyaqətlə qorunub saxlanılır, Azərbaycan həqiqətləri doğru-düzgün dünya xalqlarına çatdırılır.

IV Qurultay öz işini uğurla başa çatdırdı. Yenidən qürbət bir ölkəyə dönürük. Ancaq birlik, həmrəylik, Vətənə, xalqa məhəbbət həmişə qəlbimizdə olacaqdır.

Fürsətdən istifadə edərək vurğulamaq istərdim ki, Polşada Füzulinin qəzəllərini Yanuş Kşıjovskinin köməkliyi ilə polyak dilinə tərcümə etmişəm. Həmçinin Nəsiminin rübailərini də tərcümə etməyə müvəffəq olmuşam.

Xaricdə yaşayan soydaşlarımızın vahid ideya ətrafında birləşdirilməsi, əməkdaşlıqlarının genişləndirilməsi diaspor təşkilatlarının lobbi kimi fəaliyyətinin stimullaşdırılması istiqamətində qarşıdakı dövrdə intensiv işlər görüləcəkdir.

**Qədir ASLAN,**
**Əməkdar jurnalist.**